# ÜMUMMİLLİ LİDERİN ALİ TƏHSİL SİYASƏTİ-
# ALİ MƏKTƏBLƏRİMİZ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Nizami Zeynalov**
*Mingəçevir Dövlət Universiteti tarix üzrə fəlsəfə doktoru,*
*dosent, Təhsil fakültəsinin dekanı*
*nizami.zeynalov.77@mail.ru*

## NATIONAL LEADER'S HIGHER EDUCATION POLICY-
## OUR HIGHER SCHOOLS ARE IN A NEW STAGE OF DEVELOPMENT

**Nizami Zeynalov**

**Summary**

It is known that education has been extremely important in people's lives in all periods of history. In addition to increasing the role of education, the global challenges of the modern era, the 21st century, have turned all the issues that need to be solved in this field into the priority direction of the state and society. In the era we live in, the competitiveness and hopeful future of every nation is directly related to achievements in the field of education. It is not accidental that the declaration of the 21st century by the UN as the "Educational Century" is actually a serious message addressed to humanity. Today, in the Republic of Azerbaijan, which is proudly celebrating the 32nd anniversary of its independence, education is one of the most priority areas of state policy. As in all fields in our republic, comprehensive development in the field of education was initiated by national leader Heydar Aliyev. It is no exaggeration to say that this powerful personality, possessor of rare intelligence, has become a living legend of all the periods in which he lived and worked.

**Keywords:** Heydar Aliyev, İlham Aliyev, national leader, Republic of Azerbaijan, university.

## ÜMUMMİLLİ LİDERİN ALİ TƏHSİL SİYASƏTİ-ALİ MƏKTƏBLƏRİMİZ
## YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Nizami Zeynalov**

**Xülasə**

Məlumdur ki, tarixin bütün dönəmlərində təhsil insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Müasir dövrün, XXI əsrin qlobal çağırışları təhsilin rolunu daha da artırmaqla yanaşı bu sahənin həlli vacib olan bütün məsələlərini dövlətin və cəmiyyətin prioritet istiqamətinə çevirmişdir. Yaşadığımız dönəmdə hər bir xalqın rəqabətə davamlılığı, ümidli gələcəyi bilavasitə təhsil sahəsində qazanılan nailiyyətlərlə bağlıdır. Təsadüfi deyil ki, BMT-nin məhz XXI əsri “Təhsil əsri” elan etməsi əslində bəşəriyyətə ünvanlanmış ciddi bir mesajdır. Bu gün müstəqilliyinin 32-ci ildönümünü qürurla yaşayan Azərbaycan Respublikasında təhsil dövlət siyasətinin ən prioritet istiqamətlərindən birini təşkil edir. Respublikamızda bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də hərtərəfli inkişafın başlanğıcı ümummilli lider, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

**Açar sözlər:** Heydər Əliyev, İlham Əliyev, ümummilli lider, Azərbaycan Respublikası, univesritet.

## ПОЛИТИКА НАЦИОНАЛЬНОГО ЛИДЕРА В ОБЛАСТИ ВЫСШЕГО
## ОБРАЗОВАНИЯ-НОВЫЙ ЭТАП ВУЗОВСКОГО ОБРАЗОВАНИЯ

**Низами Зейналов**

**Аннотация**

Известно, что во все периоды истории образование имело чрезвычайно важное значение в жизни людей. Помимо повышения роли образования, глобальные вызовы современности, XXI века превратили все вопросы, требующие решения в этой сфере, в приоритетное направление государства и общества. В эпоху, в которой мы живем, конкурентоспособность и надежды на будущее каждой нации напрямую связаны с достижениями в области образования. Не случайно объявление XXI века ООН «веком образования» на самом деле является серьезным посланием, адресованным челове-

честву. Сегодня в Азербайджанской Республике, с гордостью отмечающей 32-летие своей независимости, образование является одним из наиболее приоритетных направлений государственной политики. Как и во всех сферах в нашей республике, всестороннее развитие в области образования было инициировано общенациональным лидером, Гейдаром Алиевым. Не будет преувеличением сказать, что эта личность, обладатель редкого ума, стала живой легендой всех периодов, в которые он жил и работал. Целенаправленная образовательная политика, осуществляемая под руководством Уважаемого Президента господина Ильхама Алиева, укрепление материально-технической и учебно-методической базы образования в стране, реконструкция образовательной инфраструктуры в целом, стимулирование развитие вузов привело к подъему азербайджанского образования на уровень передовых мировых стандартов и требований 21 века, а наши вузы добились высоких позиций в международных рейтингах.

**Ключевые слова:** Гейдар Алиев, Ильхам Алиев, общенациональный лидер, Азербайджанская Республика, университет.

**Giriş.** Tarixin bütün dönəmlərində təhsil insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Müasir dövrün, XXI əsrin qlobal çağırışları təhsilin rolunu daha da artırmaqla yanaşı bu sahənin həlli vacib olan bütün məsələlərini dövlətin və cəmiyyətin prioritet istiqamətinə çevirmişdir. Yaşadığımız dönəmdə hər bir xalqın rəqabətə davamlılığı, ümidli gələcəyi bilavasitə təhsil sahəsində qazanılan nailiyyətlərlə bağlıdır. Təsadüfi deyil ki, BMT-nin məhz XXI əsri "Təhsil əsri" elan etməsi əslində bəşəriyyətə ünvanlanmış ciddi bir mesajdır.

Tam məsuliyyəti ilə qeyd etmək lazımdır ki, ulu öndərin əsasını qoyduğu bu təhsil siyasəti Azərbaycanın təkrar öz dövlət müstəqilliyinə qovuşduğu dövrdə real bəhrələrini verdi. Məhz həmin dövrdə formalaşdırılmış ali təhsilli kadr potensialı müstəqillik illərində respublikamızda dövlət quruculuğunun müxtəlif sahələrinə cəlb olunaraq öz missiyasını layiqincə yerinə yetirdi [9,114].

Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müstəqilliyimizin ilk illərində Azərbaycan təhsilinin böyük himayəçisi Heydər Əliyevin yüksək dövlət vəzifələrindən kənarda qalması, AXC-Müsavat tandeminin yarıtmaz fəaliyyəti bütün sahələrdə olduğu kimi təhsil sahəsində də durğunluğun və böhranlı vəziyyətin yaranmasına səbəb oldu.

Ulu öndərin 15 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" haqqında Sərəncamı sözün əsl mənasında Azərbaycan təhsilinin qurtuluşunun başlanğıcını qoydu. Əslində, müasir milli təhsilimizdə 2013-cü ilədək davam edən ayrıca bir mərhələnin başlanğıcını qoyan bu Sərəncamla ölkə təhsilinin bütün sahələrinin, o cümlədən ali təhsilin tamamilə yeni əsaslar üzərində qurulması, yeni normativ-hüquqi bazanın yaradılması, yeni təhsil məzmununun formalaşdırılması, kadr təminatının yaxşılaşdırılması və maddi-texniki bazanın yenidən qurulması kimi ən vacib istiqamətlərdə islahatlar proqramı başlandı [1]. 2000-ci ildən başlayaraq ölkədə ali təhsil müəssisəsi şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. Bu tendensiya ölkəmizdə ali təhsilli mütəxəssis hazırlığı istiqamətində yeni üfüqlərin açılması demək idi.

Təhsil sahəsində islahatlarla bağlı 1999-cu il Prezident Sərəncamından fərqli olaraq 2013-cü il Sərəncamı artıq ölkə təhsilindəki təkcə yerli vəziyyəti təhlil etmir, eyni zamanda təhsil sahəsindəki beynəlxalq təcrübə və meylləri, beynəlxalq çağırışları nəzərə almaqla respublika təhsilinin növbəti mərhələ üçün inkişaf prioritetlərini müəyyənləşdirirdi [2].

Müasir dünyanın inkişaf meylləri və çağırışları universitetlərə münasibətdə baxış bucağını dəyişdirməklə yanaşı, həm də bu ali təhsil müəssislərinin yeni inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir. Artıq hər kəsə gün kimi aydındır ki, ənənəvi modeldən imtina etməyən və öz strateji inkişafını günün tələbləri səviyyəsində qurmağı bacarmayan universitetlər gələcəkdə yaşamağa qabil olmayacaqdır.

Bu gün müasir universitetlərin inkişafında trend xarakterli istiqamətlərdən biri elmi biliklərin təhsilə və təhsil vasitəsilə istehsalata inteqrasiya edilməsi, bir sözlə, "təhsil-elm-istehsal" üçbucağının formalaşdırılmasıdır. Təsadüfi deyil ki, ölkə başçısının təsdiq etdiyi "Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan "təhsil-elm-istehsal" üçbucağında universitetlərin rolu ayrıca qeyd edilmişdir [4].

Müasir dövrün ümumi inkişaf tendensiyası da bir daha sübut edur ki, bu gün və gələcəkdə də postindustrial cəmiyyətlərdə təhsilin və istehsalatın kəsişdiyi yeganə ortaq nöqtə məhz rəqəmsallaş-

ma olacaqdır. Bu baxımdan rəqəmsal texnologiyalara, bununla bağlı müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnməyən cəmiyyətin uğurlu inkişafı və gələcək dünya birliyində özünə dayanıqlı mövqe tutması sual altında olacaqdır.

Bu baxımdan müasir universitetlərin missiyasının günün tələblərinə uyğun tədricən dəyişməsi, universitetlərin elmi tədqiqat mərkəzlərinə, həm də elmi bilikləri istehsalla bilavasitə əlaqələndirən vacib aktora çevrilməsi, universitetlərdə səmərəli tənzimləmə mexanizmlərinə malik dövlət-ictimai və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması, xüsusilə regional universitetlərin əhəmiyyətinin artması əsas trendlərdən biri kimi ön plana keçməkdədir. Təsadüfi deyildir ki, təhsil sahəsinə aid olan son tədqiqatlarda da müasir universitetlərin missiyasının getdikcə dəyişməsi və yenilənməsi vurğulanmaqdadır. Müasir dövrdə universitetlərin sosiomədəni mühitdə, iqtisadi həyatda, hətta regional idarəetmədə oynadığı aparıcı və çoxtərəfli rolunu nəzərə alaraq onların artıq “universitet” kimi deyil, “multiversitet” kimi adlandırılması təklif olunur [12, s.185].

Bu mənada, sürətlə modernləşmə yoluna qədəm qoymuş Mingəçevir Dövlət Universiteti də respublikamızda və dünyada baş verən innovativ yeniliklərə adekvat cavab vermək, öz işini günün tələbləri səviyyəsində yenidən qurmaq, təhsil və tədqiqat sahəsindəki müasir trendləri dəyərləndirmək, bir sözlə, yeni dövrün universitetinə çevrilmək yolunda öz səylərini inadla davam etdirməkdədir. Mingəçevir Dövlət Universiteti cənab Prezident tərəfindən onun qarşısında qoyulmuş çox aydın və əlçatan bir hədəfə – paytaxt universitetləri səviyyəsinə yüksəlmək hədəfinə doğru sürətlə irəliləməkdədir.

Mingəçevir Dövlət Universitetində müasir təhsilin trend istiqamətlərindən birini təşkil edən universitet-sənaye işbirliyi çərçivəsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi, əmək bazarının tələblərini nəzərə alan tədris mühitinin formalaşdırılması, müvafiq peşə kompetensiyalarına malik səriştəli kadrların yetişdirilməsi istiqamətində uğurlu addımlar atılmaqdadır. Bu istiqamətdə “Azərbaycan İES” MMC, “Azmade Group” MMC, “Kapital Bank” ASC, “Atəşgah sıgorta” və s. istehsalat müəssisələri ilə təlim-təcrübə proqramlarının, elmi konfrans, nəzəri-praktik seminar, “dəyirmi masa”, infotur, infosessiya və digər müxtəlif formatlı tədbirlər həyata keçirilmişdir. Son dövrlərdə istehsalat və qarşılıqlı təlim-təcrübə proqramlarının həyata keçirilməsi baxımından Mingəçevir Dövlət Universitetinin regionlarda yerləşən peşə məktəbləri və liseyləri ilə, habelə pedaqoji kadr hazırlığı istiqamətində Mərkəzi Aran Regional Təhsil İdarəsi ilə ikitərəfli əlaqələri diqqət mərkəzində saxlanmışdır [5].

13 aprel 2023-cü ildə Mingəçevir Dövlət Universitetinin koordinatorluğu ilə “Azərbaycan ali təhsilində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi” (ENGAGE) mövzusunda Erasmus+ layihəsinin açılış mərasimi universitetimizdə beynəlxalq əməkdaşlığın və universitetin beynəlxalq imicinin artırılması istiqamətində yeni mərhələnin başlanmasından xəbər verir.

Möhtərəm Prezident, cənab İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan məqsədyönlü təhsil siyasəti, ölkədə təhsilin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, bütövlükdə təhsil infrastrukturunun yenidən qurulması, universitetlərin inkişafının stimullaşdırılması Azərbaycan təhsilinin qabaqcıl dünya standartları və XXI əsrin tələbləri səviyyəsinə yüksəlməsinə, universitetlərimizin beynəlxalq reytinqlərdə yüksək yerləri əldə etməsinə aparıb çıxaracaqdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı / *[Elektron resurs]. https://e-qanun.az/framework/5363*
2. Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər / *[Elektron resurs].* https://president.az/az/articles/view/50474
3. Bayramov Ş.V. MDU yeni inkişaf mərhələsində: əsas hədəflər və nəticələr. “Azərbaycan müəllimi” qəz. 5 avqust 2022
4. Bayramov Ş.V. Mingəçevir Dövlət Universiteti: prioritetlər, nəticələr, hədəflər. “Respublika” qəz. 9 avqust 2022
5. Bayramov Ş.V. MDU müasirləşmə mərhələsində: yeni hədəflər və əsas nailiyyətlər. “Azərbaycan müəllimi” qəz. 14 yanvar 2022